Bismillahir- Rəhmanir- Rəhim!

# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN NİZAMNAMƏSİ
(yeni redaksiyada)

*(Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası tərəfindən 17.07.2017-ci ildə təsdiq edilmiş, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 31.07.2017-ci ildə dövlət qeydiyyatına alınmışdır).*

## I. ÜMUMİ MÜDDƏALAR

1.1. Qafqaz Müsəlmanları İdarəsi 1959-cu ildə qeydiyyata alınmış Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin bazasında yaradılmışdır, onun öhdəliklərinin daşıyıcısı və hüquqi varisidir.

1.2. Qafqaz Müsəlmanları İdarəsi (bundan sonra-İdarə) regionda (Azərbaycan Respublikasında, Ermənistan Respublikasında, Gürcüstanda, Rusiya Federasiyasının Şimali Qafqaz ərazisində) yaşayan müsəlmanların dini qurumlarını özündə birləşdirən tarixi İslam dini ali mərkəzidir. Bu dini qurumlar öz mərkəzi (İdarəsi) ilə təmsil olunurlar.

1.3. Azərbaycan Respublikasında təşkilat məsələlərində İslam dini icmaları Qafqaz Müsəlmanları İdarəsinə tabedir və öz fəaliyyətləri haqqında İdarəyə hesabat təqdim edirlər.

1.4. İdarəyə, həmçinin başqa ərazilərdə yaşayan müsəlmanların dini qurumları birləşə bilərlər. Belə dini qurumlarla İdarənin münasibətləri qarşılıqlı razılıq üzrə həyata keçirilir.

1.5. İdarə Qurani-Kərimin tələb və müddəalarını, Peyğəmbərin (s) hədislərini əsas tutaraq, bütün şəri və öz səlahiyyətləri daxilində dini icmaların təşkilati məsələlərinin həllini təmin etmək, onların fəaliyyətinə nəzarət etmək və həmin fəaliyyəti əlaqələrdirmək, məzhəb ayrı-seçkiliyinə yol verməmək məqsədi daşıyır.

1.6. İdarə digər dinlərin beynəlxalq və ərazi təşkilatları ilə xeyirxah münasibətlər saxlayır, milli, irqi, dini ayrı-seçkiliyə yol vermir, başqa dinlərin və millətlərin adət-ənənələrinə hörmətlə yanaşır.

1.7. İdarə öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasının, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan

Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, başqa normativ-hüquqi aktların müddəaları və bu Nizamnamə əsasında həyata keçirir. İdarə başqa dövlətlərdə fəaliyyətini həmin dövlətlərin qanunlarına hörmət və riayət etməklə həyata keçirir.

1.8. İdarə və onun qurumları siyasi fəaliyyət göstərmirlər, siyasi partiyaların fəaliyyətində iştirak etmirlər və onlara maliyyə yardımı göstərmirlər, öz binalarında siyasi tədbirlər keçirilməsinə yol vermirlər. Din xadimləri dövlət orqanlarına seçildikdə və ya təyin olunduqda onların peşəkar dini fəaliyyəti həmin vəzifədə olduqları müddətdə dayandırılır.

1.9. İdarə dövlət qeydiyyatına alındığı vaxtdan qeyri-kommersiya hüquqi şəxs statusuna malikdir.

1.10. İdarə və dini qurumlar Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əməl edir və onları pozduqda məsuliyyət daşıyırlar.

1.11. İdarə 30 gün ərzində dini icmanın dövlət qeydiyyatına alınması üçün tələb olunan sənədləri öz təqdimatı ilə birlikdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (DQİDK) göndərir. İdarənin təqdimatı olmadan İslam təmayüllü dini icma dövlət qeydiyyatına alınmır.

1.12. İdarə dini icmalar barədə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 12-1-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş məlumatlara malik olduqda, həmin dini icmaların təsisçilərinin tərkibinin dəyişdirilməsinin və ya icmanın ləğvinin zəruriliyi barədə DQİDK qarşısında vəsatət qaldırır.

1.13. Dövlət qeydiyyatına alınmış dini qurumlar onların dövlət qeydiyyatına alınması üçün tələb olunan məlumatlarda və ya sənədlərdə hər hansı dəyişiklik olduqda, bu barədə məlumatı və müvafiq dəyişikliyi təsdiq edən sənədləri DQİDK-ya İdarənin vasitəsi ilə təqdim etməlidir.

1.14. Dini qurumlar yalnız dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatlarda hüquqi ünvan kimi göstərilən ibadət yerlərində həmin dini qurumlara Qafqaz Müsəlmanları İdarəsi tərəfindən din xadimi təyin edildikdən sonra fəaliyyət göstərə bilərlər.

1.15. İdarə öz adından müqavilələr bağlaya, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə edə, vəzifələr daşıya, məhkəmədə iddiaçı və cavabdeh ola bilər.

1.16. İdarənin müstəqil balansı, ştampı, möhürü, blankları və digər rekvizitləri var. İdarənin öz rəmzləri ola bilər.

1.17. İdarə Azərbaycan Respublikasının banklarında və xarici banklarda milli və xarici valyuta hesabları aça bilər.

1.18. İdarənin mərkəzi iqamətgahı Bakı şəhəri, M. Fətəli küçəsi, 7 saylı binadır və həmin ünvan həm də İdarənin olduğu yeri bildirən hüquqi ünvandır.

## II. İDARƏNİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

2.1. İdarə:

• təmsil etdiyi dini qurumların hüquqlarını və qanuni mənafeyini təmin edir və qoruyur;

• müvafiq qaydada əhatə etdiyi ərazidə yerləşən müsəlmanların dini qurumlarının, İslam təhsili və elm ocaqlarının fəaliyyətinə təşkilati rəhbərlik edir, onlara nəzarət edir, dini rəhbər şəxsləri (axundları, imamları və b.) Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (DQİDK) məlumat verməklə vəzifəyə təyin edir və vəzifədən azad edir, onların işini qanunvericiliyə və bu Nizamnaməyə əsasən istiqamətləndirir və əlaqələndirir; qanunvericilikdə nəzərdə tutulmuş qaydada ibadətgahlar və ziyarətgahlar yaradır, onların fəaliyyətinə nəzarət edir.

Bu məqsədlə mütəvəlli və ya digər din xadimı təyin edir və bu barədə DQİDK-ya məlumat verir;

• dövlət orqanları ilə razılaşmalar əldə edilməsində və dövlət orqanları tərəfindən həlli tələb olunan məsələlərdə dini qurumlara lazımi yardım göstərilməsi üçün DQİDK-ya vəsatətlər verir;

• DQİDK-nın səlahiyyətlərinə aid məsələlərə dair onun yazılı sorğularına cavab verir;

• beynəlxalq işgüzar əlaqələrdə, ziyarətlərin təşkilində və müvafiq sənədlərin hazırlanmasında kömək göstərilməsi üçün DQİDK-ya müraciət edir;

• rayon və şəhər icra hakimiyyətləri yanında yaradılmış dini məsələlər üzrə komissiyaların işində dini qurumların iştirakına təşkilati-metodik köməklik göstərir;

• dini etiqad azadlığı ilə bağlı qanunvericiliyə zidd hərəkətlər barədə DQİDK-nın təqdimatlarına baxır;

• qanunvericiliyə uyğun surətdə məqsədəuyğun sayılan qurumları, o cümlədən Azərbaycan Respublikasında və xarici ölkələrdə öz nümayəndəliklərini, təsərrüfat və istehsal sahələri yaradır, dini təmayüllü xidmətləri təşkil edir;

• öz işini aparmaq, vəzifələrini yerinə yetirmək üçün, habelə iş görülməsi və xidmət göstərilməsi barədə əmək müqavilələri və mülki-hüquqi müqavilələr bağlayır;

• İslamın elmi əsaslarının araşdırılması məqsədilə alimlərdən və din xadimlərindən ibarət Elmi-Dini Şura yaradır;

• İslam dininə aid şəri və başqa mübahisəli məsələləri həll edir;

• əcnəbiləri və vətəndaşlığı olmayan din xadimlərini təbliğat aparmaq üçün dəvət edir;

• müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşlarını İslam dininin ayin və mərasimlərinin aparılmasına buraxır;

• xaricdə yerləşən İslam dini ziyarətgahlarına vətəndaşların qrup halında ziyarətlərini təşkil edir; ibadətlər, dini ayinlər, mərasimlərlə bağlı tədbirləri təşkil edir, keçirir və ya onların keçirilməsinə köməklik göstərir;

• dini qurumlar tərəfindən gənclərin və yaşlıların Qurani-Kərimi öyrənmə kurslarının (qruplarının) yaradılmasına razılıq verilməsi məsələsini həll edir;

• uşaq evlərinə, internatlara, qocalar evlərinə, xəstəxanalara, cəzaçəkmə müəssisələrinə, əlillərə və maddi cəhətdən ehtiyacı olanlara təmənnasız dini ayin xidmətləri və öz imkanları daxilində maddi yardım göstərir;

• dini mövzuda seminarlar, görüşlər, konfranslar, disputlar keçirir;

• DQİDK ilə razılaşdırmaqla dini təyinatlı ədəbiyyat, dini ayinlər üçün əşyalar, audio-video və s. materiallar hazırlayır, xaricdən gətirir və onları sərbəst surətdə yayır;

• müxtəlif formalarda mədəni-maarif fəaliyyəti göstərir;

• beynəlxalq dini tədbirlərdə, xaricdə keçirilən dini mərasimlərdə iştirak edir;

• xaricdə yerləşən dini mərkəzlərlə, ziyarətgahlarla, dövlət qurumları və qeyri-hökumət təşkilatları, eləcə də ayrı-ayrı şəxslərlə əlaqələr yaradır;

• DQİDK-nın rəyi nəzərə alınmaqla Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilən xüsusi razılıq (lisenziya) əsasında din xadimləri və dini ixtisaslar üzrə kadrlar hazırlanması üçün bir ali və orta-ixtisas dini təhsil müəssisələri yaradır;

• dini təhsil müəssisələrinin tədris proqramlarını, dərsliklərini, dərs vəsaitlərini, lazımi təlimatları hazırlayır və tələbə qəbulu sayını müəyyənləşdirir;

• müvafiq icra hakimiyyəti ilə razılaşdırmaqla vətəndaşların təhsil almaq üçün xarici ölkələrin dini tədris müəssisələrinə göndərilməsini, dini tədris müəssisələri

tələbələrinin və müəllimlərinin, habelə din xadimlərinin və mütəxəssislərinin mübadiləsini həyata keçirir;

• gənclərin və yaşlıların Qurani-Kərimin öyrənməsi məqsədi ilə Quran kursları və qrupları yaradır və müəyyən olunmuş formada təlim-tərbiyə prosesini həyata keçirir;

• İslam dini qurumlarının təsis sənədlərinin bu Nizamnaməyə uyğunluğunu təmin edir və dini qurumların dövlət qeydiyyatına alınması üçün təqdimatlar verir;

• Vətənin müdafiəsi ilə bağlı tədbirlərdə iştirak edir, bu tədbirlərə mənəvi və maddi yardım göstərir;

• haqq işinin müdafiəsi üçün zəruri hallarda xaricdəki dindarlara, beynəlxalq İslam təşkilatlarına yardım üçün müraciət edir;

• İslama və müsəlmanlara qarşı yönələn təcavüzə birbaşa və ya öz nümayəndəlikləri vasitəsi ilə münasibət bildirir, zəruri hallarda isə maddi yardım göstərmək təşəbbüsü ilə çıxış edir;

• özünün mükafatlarını təsis edir, mükafatlandırmanı həyata keçirir;

• qanunla qadağan edilməyən və bu Nizamnamədən irəli gələn digər hüquqları və vəzifələri həyata keçirir.

## III. QAFQAZ MÜSƏLMANLARININ QURULTAYI

3.1. İdarənin ali orqanı beş ildən bir keçirilən Qafqaz müsəlmanlarının Qurultayıdır. İdarə öz fəaliyyəti haqqında qurultaya, qurultaylararası dövrdə isə Qazılar Şurasına hesabat verir.

3.2. Təxirəsalınmaz məsələlərin həlli üçün İdarənin sədri öz təşəbbüsü və ya Qazılar Şurası üzvlərinin azı yarısının təşəbbüsü ilə növbədənkənar Qurultay çağırır. Qurultay nümayəndələri onun başlanması gününə azı bir ay qalmış İdarənin əhatə etdiyi coğrafiyada fəaliyyət göstərən dini qurumlar tərəfindən seçilir.

3.3. Qurultay nümayəndələrinin seçilməsi qaydasını və normasını Qurultaya azı üç ay qalmış İdarə tərəfindən yaradılan Təşkilat komitəsi müəyyənləşdirir.

3.4. Növbədənkənar Qurultayın çağırılma əsaslarının vacibliyi nəzərə alınaraq nümayəndələrin seçilməsinin qısaldılmış müddətləri təyin olunur.

3.5. Qurultaya xaricdəki Azərbaycan diasporunun nümayəndələri, xarici ölkələrin din xadimləri və başqaları dəvət oluna bilər.

3.6. Seçilmiş nümayəndələrin ən azı 2/3 hissəsi iştirak etdikdə, Qurultay səlahiyyətli sayılır. Hər nümayəndə bir səsə malikdir.

3.7. Bu Nizamnamədə başqa qayda nəzərdə tutulmamışdırsa, Qurultayın qərarları sadə səs çoxluğu ilə qəbul olunur.

3.8. Qurultay qəbul etdiyi reqlamentlərə uyğun keçirilir. Qurultayın iclaslarının protokolu tərtib edilir. Protokol iclasın sədri və katibi tərəfindən imzalanır.

3.9. Qurultay aşağıdakı məsələlər üzrə qərarlar qəbul edir:

- İdarənin orqanlarının qurultaylararası hesabatının müzakirəsi və qiymətləndirilməsi;
- İdarə orqanlarının: Qazılar Şurasının, İdarə sədrinin və Nəzarət-Təftiş Komissiyasının seçilməsi, onların səlahiyyətlərinə xitam verilməsi: sədrin səlahiyyətlərinə xitam verilməsi haqqında qərar seçilmiş nümayəndələrin ən azı 2/3 hissəsi iştirak etdikdə onların 2/3 səs çoxluğu ilə qəbul olunur;
- İdarənin fəaliyyətinin dayandırılması və ləğvi: qərar seçilmiş nümayəndələrin ən azı 2/3 hissəsi iştirak etdikdə onların 2/3 səs çoxluğu ilə qəbul olunur;
- İdarənin Nizamnaməsinin qəbul olunması, ona dəyişiklik və əlavələr edilməsi: qərar seçilmiş nümayəndələrin ən azı 2/3 hissəsi iştirak etdikdə onların 2/3 səs çoxluğu ilə qəbul olunur.

3.10. Qurultayın qərarlarını İdarənin sədri imzalayır və bu qərarlar dərhal qüvvəyə minir.

## IV. İDARƏNİN SƏDRİ

4.1. İdarənin sədri, Qafqaz müsəlmanlarının Qurultayında açıq səsvermə yolu ilə adi səs çoxluğu qaydasında seçilir və ona “Şeyxülislam” ali-dini rütbəsi verilir.

4.2. Sədr:

- İdarənin fəaliyyətinə bilavasitə rəhbərlik edir; sədr olmadıqda İdarəyə inzibati rəhbərliyi onun tapşırığı ilə sədrin birinci müavini, o da olmadıqda müavinlərdən biri həyata keçirir;
- Sədrin birinci müavinini və müavinlərini, İdarənin işçilərini və ona tabe olan digər qurumların rəhbər şəxslərini vəzifəyə təyin edir və vəzifədən azad edir;
- İdarənin adından əmək müqavilələri və mülki-hüquqi müqavilələr bağlayır, səlahiyyətlərini həyata keçirmək məqsədilə qərarlar qəbul edir, əmrlər və sərəncamlar verir;
- İdarənin pul vəsaitləri və digər əmlakı barədə sərəncamlar verir;

- dövlət qurumları, qeyri-hökumət təşkilatları və başqa şəxslərlə münasibətlərdə İdarəni etibarnaməsiz təmsil edir və ya bu məqsədlə nümayəndələr təyin edir və etibarnamələr verir;

- İdarə Aparatının strukturunu, tabeliyində olan qurumlar və bölmələr haqqında nizamnamələri (əsasnamələri), vəzifə təlimatlarını təsdiq edir;

- İdarə adından mükafatlandırma haqqında qərarlar qəbul edir;

- Azərbaycan Respublikasının qanunvericiliyində və bu Nizamnamədə nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirir.

4.3. İdarənin fəaliyyətində məzhəb ayrı-seçkiliyinə yol vermir və fəaliyyət ərazisində olan məzhəblər bu işə cavabdeh sədr müavinləri ilə təmsil olunurlar.

4.4. Digər məzhəblərin şəri məsələlərinə rəhbərlik etmək üçün Şeyxülislam tərəfindən Qazılar Şurasının bir üzvü sədrin birinci müavini təyin olunur və ona “müfti” rütbəsi verilir.

## V. QAZILAR ŞURASI

5.1. Qazılar Şurası üzvlərinin sayı və fərdi tərkibi İdarə rəhbərliyinin təklifi ilə, bütün bölgələrin təmsil olunması gözlənilməklə Qurultayda müəyyən edilir.

5.2. Yüksək dini təhsilli və nüfuzlu din xadimləri sırasından seçilən qazılar yerlərdə dindarların şəri məsələlərini həll edirlər.

5.3. Qazılar Şurasının iclası üzvlərinin azı yarısı iştirak etdikdə səlahiyyətlidir.

5.4. Qazılar Şurasının iclaslarına İdarənin sədri sədrlik edir.

5.5. Mübahisəli məsələlər Qazılar Şurasının iclasında səs çoxluğu ilə həll edilir.

5.6. Qazılar Şurası qurultaylararası dövrdə İdarənin yeni redaksiyada Nizamnaməsini qəbul edə və ya Nizamnaməyə dəyişiklik və əlavələr edə bilər. Bu barədə qərar Qazılar Şurası üzvlərinin ən azı 2/3 hissəsi iştirak etdikdə, üzvlərin 2/3 səs çoxluğu ilə qəbul olunur.

5.7. Qazılar Şurası dini bayram, mərasim və digər vacib dini məsələlərlə əlaqədar fətvalar və tövsiyələr verir.

5.8. Qazılar Şurası mükafatlandırma məsələlərinə baxır və bununla əlaqədar İdarənin sədrinə təkliflər verir.

5.9. Qazılar Şurası İdarənin və ya onun tabeliyində olan dini qurumların şəri normaları, qüvvədə olan qanunvericiliyi pozan, yaxud üzərinə düşən vəzifələri yerinə yetirməyən istənilən vəzifəli şəxsini vəzifədən azad etmək haqqında qərar qəbul edə bilər.

5.10 Müəyyən səbəblərə görə vəzifəsini icra edə bilməyən bölgə qazısının səlahiyyəti İdarənin sədri tərəfindən Qurultaya qədər müvəqqəti olaraq din xadimlərindən birinə həvalə oluna bilər.

5.11. Qazılar Şurasının üzvü iclasda iştirak edən Şura üzvlərinin azı 2/3-nin səs çoxluğu ilə Şura üzvlüyündən çıxarıla bilər.

5.12. Bölgə qazısı cavabdeh olduğu ərazidə fəaliyyət göstərən dini icmaların, məscidlərin, ziyarətgahların (pirlərin) dini təlim ocaqlarının fəaliyyətinə nəzarət edir və görülən işlər barəsində İdarəyə mütəmadi hesabat verir.

5.13. Qazılar Şurasının qərarlarını İdarənin sədri imzalayır və onun qərarları dərhal qüvvəyə minir.

5.14. Qazılar Şurasının fəaliyyəti ilə bağlı bu Nizamnamədə nəzərdə tutulmayan və Qurultay tərəfindən həll edilməyən məsələlər İdarənin sədri tərəfindən təsdiq olunan "Qazılar Şurası haqqında Əsasnamə" ilə tənzimlənir.

## VI. NƏZARƏT-TƏFTİŞ KOMİSSİYASI

6.1. Nəzarət-təftiş komissiyasının say və fərdi tərkibi İdarə sədrinin təklifi ilə Qurultayda müəyyən edilir.

6.2. Nəzarət-təftiş komissiyası yoxlamalar üzrə aktlar tərtib edir və onları Qazılar Şurasının növbəti iclasına təqdim edir.

6.3. Nəzarət-təftiş Komissiyası:

6.3.1. əmlakın mövcud vəziyyətini nəzarətdə saxlayır və inventarizasiyalar aparır;

6.3.2. dini qurumların maliyyə-təsərrüfat fəaliyyətini təftiş edir;

6.3.3. aşkar edilmiş maliyyə-təsərrüfat pozuntuları haqqında İdarə rəhbərliyinə məlumat verir;

6.3.4. dini qurumların İdarəyə təqdim etdikləri maliyyə hesabatlarını araşdırır;

6.3.5. İdarənin qurumlarının və vəzifəli şəxslərin bu Nizamnaməyə uyğun fəaliyyət göstərmələrinə nəzarət edir.

6.3.6. zəruri hallarda öz işinə mütəxəssis cəlb edilməsi üçün İdarə sədri qarşısında təkliflərlə çıxış edir;

6.3.7. daxil olmuş ərizə, şikayət və müraciətlərə müvafiq qaydada baxılmasını təmin edir.

## VII. İDARƏNİN MÜLKİYYƏTİ VƏ VƏQF ƏMLAKI

7.1. İdarə əmlak və şəxsi qeyri-əmlak hüquqlarına malikdir. İdarənin mülkiyyətində bina, avadanlıq, nəqliyyat vasitələri, poliqrafiya avadanlığı, kütləvi informasiya vasitələri və qanunla qadağan olunmamış hər hansı başqa əmlak ola bilər.

7.2. İdarənin mülkiyyətində həm ölkədə, həm ölkə xaricində vəqf əmlakı ola bilər. Vəqf əmlakı xeyriyyə məqsədləri üçün istifadə olunur, onun, qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, özəlləşdirilməsinə, dövlət mülkiyyəti üçün alınmasına və digər qaydada özgəninkiləşdirilməsinə yol verilmir.

7.3. Dövlətin mülkiyyətində olan dini təyinatlı binalar və digər əmlak İdarənin və dini qurumların əvəzsiz istifadəsinə verilə bilər. İdarə torpaq sahələrindən Azərbaycan Respublikasının "Torpaq Məcəlləsi"nə uyğun olaraq istifadə edə bilər.

7.4. Vəqf mülkiyyəti ayrı-ayrı şəxslərin, təşkilatların, qurumların və dövlətin ianə, xeyriyyə və digər şəkildə verdiyi əmlak və torpaq sahəsi, habelə vəsiyyət edilmiş əmlak hesabına yaranır.

7.5. İdarənin maliyyə vəsaiti öz fəaliyyəti, əmlakının istifadəsindən əldə olunan gəlirlər, fiziki və hüquqi şəxslərin, əhatə etdiyi ərazidəki dini qurumların və ziyarətgahların könüllü ayırmaları hesabına, habelə qanunla qadağan olunmayan digər mənbələrdən yaranır.

7.6. İdarəyə və dini qurumlara dövlət və yerli özünüidarə orqanları tərəfindən maliyyə yardımı göstərilə bilər.

## VIII. İDARƏNİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

8.1. İdarə hüquqi şəxs kimi müstəqil istehsalat və təsərrüfat sahələri, təmir-tikinti, tikinti, bərpa müəssisələri, kənd təsərrüfatı məhsulları istehsal edən, dini əşyalar hazırlayan sahələr yaratmaq və nəşriyyat işi ilə məşğul olmaq hüququna malikdir.

8.2. İdarə hər hansı xarici müəssisə ilə birlikdə müxtəlif təyinatlı istehsalat, mətbəə, ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələri yarada və DQİDK-nın razılığı ilə dini ədəbiyyat nəşr edə bilər.

8.3. İdarə və onun tabeliyində olan dini qurumlar xeyriyyə məqsədləri ilə müəssisələr, internatlar, yeməkxanalar, qocalar və əlillər evləri, xəstəxanalar yarada, təsis etdikləri fondlar, o cümlədən ictimai fondlar vasitəsilə xeyriyyəçilik və mədəni-maarif fəaliyyəti göstərə bilərlər.

8.4. İdarə dini mərasimlərin və ayinlərin keçirilməsi barədə mütəmadi olaraq fətvalar verir. Dini mərasimlər və ayinlər şəriətin tələbləri əsasında İdarənin təyin etdiyi qazılar, axundlar (imamlar) və başqa din xadimlərinin rəhbərliyi altında və onlar tərəfindən icra olunmaqla keçirilir.

8.5. İdarə xaricdəki dövlət qurumları, qeyri-hökumət təşkilatları, dini mərkəzlərlə, ziyarətgahlarla, Azərbaycan diasporu və başqa şəxslərlə birbaşa yaxından əlaqələr yarada bilər və ya həmin məqsədlərlə öz nümayəndəliklərini təşkil edə bilər.

8.6. İdarə beynəlxalq İslam təşkilatlarında əhatə etdiyi ərazinin təmsil olunmasına, İslam ölkələri və digər ölkələrlə dövlətlərarası münasibətlərin qurulmasına və inkişaf etdirilməsinə imkan daxilində yardım göstərir.

8.7. İdarənin din xadimləri və işçiləri ilə münasibətləri əmək qanunvericiliyinə müvafiq surətdə tənzimlənir və onların gəlirlərindən müvafiq qaydada vergi tutulur.

8.8. İdarənin və onun tabeliyində olan dini qurumların işçilərinin sosial sığortası “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu, pensiya təminatı “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

## IX . NİZAMNAMƏNİN QƏBULU VƏ ONDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ. İDARƏNİN FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ.

9.1. İdarənin fəaliyyətinə Qafqaz müsəlmanları Qurultayının qəbul etdiyi qərar və ya Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada qəbul edilmiş qərar əsasında xitam verilə bilər. İdarənin fəaliyyətinə xitam verilərkən onun əmlakı haqqında məsələ qanunvericilikdə və bu Nizamnamədə nəzərdə tutulmuş qaydada həll olunur.

9.2. İdarənin Nizamnaməsinin qəbulu və ya Nizamnamədə dəyişikliklər və əlavələr edilməsi bu Nizamnamədə müəyyən edilən qaydada Qurultayın, yaxud qurultaylararası dövrdə Qazılar Şurasının qərarları ilə həll olunur.

9.3. Nizamnaməyə dəyişikliklər və əlavələr müvafiq dövlət orqanında qeydə alındıqdan sonra hüquqi qüvvəyə malikdir.